# Xocalı soyqırımı beynəlxalq müstəvidə

## Hamilton




Diasporla İş üzrə Dövlət xidmətindən verilən məlumata görə, Kanadanın Hamilton şəhərində fəaliyyət göstərən Hamilton Azərbaycan Cəmiyyəti Xocalı soyqırımının 33-cü il dönümü ilə bağlı anım tədbiri keçirib. Tədbirə Azərbaycan icmasının, Kanada ictimaiyyətinin üzvləri, McMaster Universitetinin tələbələri və 10 fərqli ölkənin nümayəndələri (Türkiyə, İngiltərə, Çin, Koreya, Ukrayna, Hollandiya, Meksika, Kanada, Serbiya, İrlandiya) qatılıb.



Anım mərasimində əvvəlcə Kanadanın və Azərbaycanın Dövlət himnləri səsləndirilib, Xocalı soyqırımının qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Təşkilatın rəhbəri Cəmilə Şepherd və tədbirin moderatoru Devid Şepherd Xocalı faciəsi haqqında tarixi faktlar, soyqırımının başvermə səbəbləri, xalqımız üçün ağır nəticələri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib və bu faciənin gələcək nəsillərə ötürülməsinin əhəmiyyətini diqqətə çatdırıblar.

Tədbirdə iştirak edən xarici qonaqlar Azərbaycan və onun tarixi haqqında kitablarla tanış olublar. İştirakçılara Xocalıda amansızlıqla qətlə yetirilən uşaqların adları və yaşları yazılmış kağız stəkanlarda çay və kofe təqdim olunub.

* * *

Kanadanın paytaxtı Ottavada və Toronto şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət təşəbbüsü və təşkilatçılığı ilə məlumatlandırma aksiyaları başlayıb.

Aksiyalar zamanı Xocalı soyqırımı həqiqətlərinin əks olunduğu LED ekranlı avtomobillər şəhərin mərkəzində, xüsusilə də, qanunvericilik binalarının yerləşdiyi küçə və meydanlarda hərəkət ediblər.




Ekranda Azərbaycan bayrağının, xəritəsinin, Xocalı soyqırımı qurbanlarının adları və fotoları nümayiş etdirilib. Təsvirlərdə "Xocalıya ədalət!", "Xocalı soyqırımını tanıyın!", "Xocalı soyqırımı, 26 fevral 1992", "Xocalı münaqişənin ən böyük qırğınıdır", "1992-ci il 26 fevral. 613 azərbaycanlı, 106 qadın, 63 uşaq, 70 ahıl şəxs qətlə yetirilib. 1275 nəfər azərbaycanlı girov götürülüb. 76 uşaq əlil olub. 25 uşaq hər iki valideynini itirib. 130 uşaq valideynlərindən birini itirib, 8 ailə tamamilə məhv edilib", "Erməni hərbi cinayətkarlarını məsuliyyətə cəlb edin!" kimi Xocalı soyqırımının dəhşətlərini əks etdirən şüar və çağırışlar da yer alıb.

## Haaqa

Niderlandın Haaqa şəhərində Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbir Azərbaycan Diasporuna Dəstək Fondunun və Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının dəstəyi, Hollanda Azərbaycan-Türk Kültür Dərnəyinin təşkilatçılığı ilə baş tutub.



Tədbir iştirakçıları əvvəlcə Haaqanın "Nieuw Eykenduynen" (Yeni İkendinen) məzarlığındakı Xocalı soyqırımı abidəsi önünə gül dəstələri düzüb, faciə qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Azərbaycan Diasporuna Dəstək Fondunun İcraçı direktoru Əkrəm Abdullayev, Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsi rəhbərinin müşaviri Hüseyin Altınalan, Milliyətçi Hərəkat Partiyasının sədr müavini, millət vəkili İlyas Topsakal, Azərbaycanın Niderlanddakı səfirinin müşaviri Nurlan Əliyev, Türkiyənin Niderlanddakı səfirliyinin nümayəndəsi Pınar Gülün Kayseri, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) sədrinin müşaviri Pərviz Məmmədzadə, Niderland ictimaiyyətinin nümayəndəsi Ron Gazelle, insan hüquqları müdafiəçisi Paul Donkers 1992-ci il fevralın 26-na keçən gecə erməni cəlladlarının dinc insanlara qarşı törətdiyi soyqırımın tarixindən danışıb, bu faciənin Azərbaycan xalqının yaddaşına qanlı hərflərlə yazıldığını söyləyiblər.



Ailə üzvlərini həmin gecədə itirən Xocalı sakini, "Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin sədri yazıçı-publisist, jurnalist Səriyyə Müslümqızı 32 ildən sonra Xocalıya qayıdan ilk sakinlərdəndir. Səriyyə Müslümqızı uzun illər həsrət qaldığı Xocalının hazırkı inkişafından fərəhlə danışıb. Holland dilinə tərcümə olunmuş "Onlar heç zaman böyüməyəcəklər" (Ze werden nooit volwassen) və "Xocalıdan gələn var" (Geesten uit Khojaly) kitablarını iştirakçılara təqdim edib.

Tədbirin davamında Heydər Əliyev Fondunun Xocalı soyqırımı ilə bağlı hazırladığı videoçarxlar, "Xocalı nişanəsi" adlı bədii-sənədli qısametrajlı film göstərilib və Hollanda-Azərbaycan Türk Kültür Dərnəyinin sədri İlhan Aşkının videoçıxışı səsləndirilib. Xarıbülbül məktəbinin şagirdlərinin Xocalı şahidlərinin yaşadığı dəhşətləri və faciənin acı reallığını əks etdirən rəsm sərgisi nümayiş olunub.

## Praqa

Çexiyada fəaliyyət göstərən "Land of Fire"in təşkilatçılığı ilə Praqanın "Respublika" meydanında Xocalı soyqırımına həsr olunmuş məlumatlandırma aksiyası keçirilib. Kampaniya çərçivəsində meydanda Xocalı faciəsi haqqında məlumatları özündə əks etdirən məlumat lövhəsi yerləşdirilib, Çex ictimaiyyəti və şəhərin qonaqları Xocalı soyqırımı haqqında ətraflı məlumatlandırılıb, Azərbaycan həqiqətləri təbliğ olunub.




## Vyana

Avstriyanın paytaxtı Vyana şəhərində yerli sakinlər və şəhərin qonaqları Xocalı soyqırımı haqqında məlumatlandırılıb. Azərbaycan Mədəniyyət Mərkəzi və İş Adamları Dərnəyinin təşkilatçılığı, eyni zamanda Vyanada yaşayan soydaşlarımızın fəal iştirakı ilə baş tutan aksiya zamanı şəhərin mərkəzində yerləşən küçə və meydanlarda bukletlər, məlumat vərəqələri paylanılıb. Bununla yanaşı, üzərində soyqırımına dair faktları əks olunan xüsusi avtomobil şəhərin mərkəzi küçə və prospektlərində hərəkət edib.




## Lyublyana

Sloveniyanın paytaxtı Lyublyana şəhərində Xocalı soyqırımı qurbanları anılıb. Azərbaycan Türk Mədəniyyət Assosiasiyasının təşkilatçılığı ilə şəhərin mərkəzində və dövlət müəssisələrinin yerləşdiyi küçələrdə üzərində "Xocalını unutmayaq!" yazılmış QR kodlu bannerlər nümayiş olunub. Bannerlərdə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş vermiş qətliamın tarixin ən dəhşətli və amansız hadisələrindən biri olduğu vurğulanıb.



**"Respublika".**

Respublika.- 2025.- 1 mart (№ 46).- S.8.